# MÖHTƏŞƏM QƏLƏBƏMİZİN TƏMİNATÇISI



**Mənfur və faşist xislətli ermənilər tərəfindən işğal olunmuş Qarabağımızın- doğma yurd-yuvalarımızın həsrəti ilə bir qərinəyə yaxın zaman kəsiyində yaşadığımız ağrılara və nisgillərə rəşadətli Ordumuzun sentyabrın 27-dən başlayan növbəti əks-hücum əməliyyatı nəticəsində nəhayət ki, son qoyuldu. Azərbaycan əsgəri bu günlər ərzində bir-birinin ardınca uzun illər ayağımız dəymədiyi müqəddəs torpaqlarımızı, şəhər, kənd və qəsəbələrimizi sürətlə düşmən tapdağından azad edirdi.**

Bu ürəkaçan, könül coşduran, hər birimizə sonsuz qürur və fərəh verən qələbə müjdələrini hər dəfə ölkə başçısı böyük fəxarət hissi ilə doğma xalqımıza çatdırırdı. Sözün həqiqi mənasında döyüşlərin davam etdiyi 44 günün hər anını, hər dəqiqəsini müzəffər Ordumuzun qələbə müjdəsi ilə yaşayırdıq. Artıq böyükdən kiçiyə qədər hamımız qələbə sorağı almaq xəbəri üstə köklənmişdik. Füzuli, Horadiz, Cəbrayıl, Qubadlı, Zəngilan, Suqovuşan, Şuşa... Məhz möhtərəm Prezidentimiz Ali Baş Komandan İlham Heydər oğlu Əliyev cənablarının düşünülmüş, məqsədyönlü siyasi iradəsi, qətiyyəti,güclü diplomatiyası, qüdrətli, müzəffər, yenilməz və rəşadətli Milli Ordumuzun sıralarında yüksək döyüş qabiliyyəti nümayiş etdirən əsgər və zabitlərimizin cəbhəboyu bütün istiqamətlərdə misilsiz şücaətləri, xalqımızın bir bayraq altında yumruq kimi birləşməsi sayəsində cəmi 44 gün ərzində düşmən qüvvələri darmadağın edildi. Qəhrəman Azərbaycan ərənlərinin qarşısında duruş gətirməyən təcavüzkarlar, yalançı demokratiyadan dəm vurmaqla, ədaləti və haqqı qoyub, bizə böhtanlar yağdıran bir sıra üzdəniraq siyasət bayquşlarının dəstəklədikləri özündən müştəbeh Paşinyan hökuməti beləliklə məcbur olub, alçaldıcı təslimçilik aktını imzaladı.

Bütün Azərbaycan xalqı noyabrın 8-də mədəniyyətimizin beşiyi Şuşanın işğaldan azad olunduğu, noyabrın 9-da Bayraq gününün sevincini yaşadığı bir zamanda nəinki Cənubi Qafqazda, eləcə də dünyada haqqın,ədalətin, sülhün, mehriban qonşuluğun və xoş müjdələrin carçısı zirvəsinə ucalmış ölkə başçısı, Ali Baş Komandan İlham Əliyev cənabları gecənin bir yarısı-noyabrın 10-da doğma xalqına bütöv Qarabağımızın işğaldan azad olunduğunu bəyan etdi.

Artıq neçə gündür ki, şanlı qələbəmizin bəxş etdiyi sevincli, təntənəli günləri yaşayır, işğaldan azad olunmuş ərazilərimizdə vüqarla dalğalanan üçrəngli bayrağımızın fövqündə sonsuz qürur hissi keçiririk.

Sözün həqiqi mənasında düşmənə qarşı başladığımız Vətən müharibəsində qazandığımız cahanşümul qələbəyə bərabər bu uğurumuzda daim mənəvi dəstəyini əsirgəməyən türk qardaşlarımıza, həmçinin dini, dili, milliyyəti özgə olmaqla Azərbaycanın haqlı olduğunu müdafiə edən sülhsevər və tərəqqipərvər ölkələrin xalqlarına sonsuz minnətdarlıq duyğularımızı ifadə edir, bu qələbənin təmin olunmasında canlarından keçmiş qəhrəman şəhid övladlarımızın müqəddəs ruhu qarşısında ehtiramla baş əyirik.

Ədliyyə orqanında çalışdığım üçün onu da qeyd etməyi lazım bilirəm ki, bu qələbə müjdəsi müəllifi ümummilli lider Heydər Əliyev olan müstəqil respublikamızın dövlətçilik tarixinə yeni Konstitusiyamızın qəbul edildiyi və Ədliyyə orqanlarının yaradılmasının 102-ci ildönümü kimi daxil olmuş əlamətdar hadisələr ərəfəsinə təsadüf etdiyindən sonsuz məmnunluq hissi keçirirəm. Fürsətdən istifadə edib bütün həmkarlarımı təbrik edir, gözaydınlığı verir, qarşıdan gələn peşə bayramınız mübarək olsun, - deyirəm.

Eşq olsun bizə bu möhtəşəm qələbə sevincini bəxş etməklə alnımızı açıq, başımızı uca edən polad iradəli Ali Baş Komandan İlham Əliyevə güclü, qüdrətli və yenilməz Milli Ordumuza! Yaşasın qəhrəman Prezidentimizin ətrafında yumruq kimi birləşərək möhtəşəm qələbəmizə gedən yolumuzu yaxınlaşdıran xalqımız!

Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!

**Gülyanaq Baxışova,**
Yevlax rayon 1 saylı Notariat ofisinin notariusu